

*Tural Cəfərli*

# "BİR SEVGİ QORUYUR NƏ VAXTDI MƏNİ"

**Havada uçuşan səsləri sözə çevirmək, sizə nəfəs verib sözlə nəfəs almaq, sözün rəngini görmək, çəkisini duymaq... hər kəsin bəxtinə düşmür və hər kəs də ona verilən şairlik missiyasını Tanrının istəyincə yerinə yetirmək qüdrətində deyil.**

Rəşad Məcidin söz dünyasının qapılarını açıb onun mənəvi aləmilə tanış olandan sonra bir daha əmin olursan ki, o, bir şair kimi, nəinki Tanrının istəyincə şeirlər yazır, həm də qələmilə öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Yaxşı şeirlər yazmaq gözəllikdi, yaxşı vətəndaş olmaq isə xoşbəxtlikdi. Gözəlliklə xoşbəxtliyi özündə birləşdirən Rəşad Məcid Tanrının ona verdiyi şairlik missiyasını həm ləyaqətlə yerinə yetirir, həm də vətəndaş -şair kimi sözlə vətənini, millətini, xalqının hiss və duyğularını, arzu və istəklərini... tərənnüm eləyir və buna görə də xalqın ürəyinə yol tapa bilir. Şeirlərilə xalqın ürəyinə yol tapan, könül duyğuları ilə oxucuları riqqətə gətirən, hər sözün, hər misranın üstündə yaz qarı kimi əriyən şairin, elin gözündə ucalmağının bir səbəbi də onun şəxsiyyətindən irəli gələn gözəl xüsusiyyətlərlə bağlıdı. Onun şəxsiyyəti şairliyini, şairliyi şəxsiyyətini tamamlayır və o, işıqlı, nurlu bir ziyalı olaraq hamı tərəfindən qəbul edilir.

Rəşad Məcid işıqlı adam olmasaydı, işıqlı şeirlər yaza bilməzdi.

Rəşad Məcid yaxşı insan, yaxşı ziyalı və yaxşı vətəndaş olmasaydı, yaxşı şeirlər yaza bilməzdi. Pis adam olub yaxşı şeir yazmaq, kinli adam olub şeirlərində ürəyini gün işığına çıxarmaq, qaşqabaqlı olub səmimi şeirlər sahibi olmaq... çətindi, çox çətindi. Hər halda mən belə düşünürəm. Düşünürəm ki, şairin özüylə sözü vəhdət təşkil etməli, bütöv olmalıdır. Şairin özündə sözü, sözündə özü görünməlidir. Bu, belə olmasa, onda şairin şeirləri ürəkdən gəlməz, zorən yazılar ki, ürəkdən gəlməyən və zorən yazılan şeirlər də ürəklərə yol tapa bilməz, oxucular tərəfindən qəbul edilib sevilməz. Saxta və süni söz də saxta pul kimidir, heç bəyənilməz.

Rəşad Məcid sözlə dərdləşən, sözə ürəyini verən, sözlə baş-başa qalmağı xoşlayan şairdi. Onun var-dövlət sarıdan bir qələmi, bir də qələmindən süzülən şeirləri var. Və bir də işıq dolu şair ürəyi var. Amma Rəşad Məcid istəsəydi daha böyük vəzifə tutub ən imkanlı adamlardan biri olardı, vəzifə kreslosunda əyləşib rahatca öz ömrünü yaşayardı. Amma o, bunu istəmədi. İstəsəydi də bacarmazdı, çünki o, var-dövlət yığmaq üçün yox, şeir yazmaq üçün dünyaya gəlib və bu dünyada onun üçün şeir yazmaqdan gözəl nə ola bilər?

Dünyanın malı dünyada qalandır. Heç kim bu dünyadan özüylə heç nə aparmayacaq. Dünyada söz qalacaq, dünyada söz yaşayacaq. Dünya yaranandan söz olub, sonra da söz olacaq. Bu, həqiqətdir. O da həqiqətdir ki, qızıl da tükənər, pul da xərclənib qurtarar, amma söz həmişə olacaq. Məgər belə deyil? Elə isə Nizami Gəncəvi dövründə hansı pullu adamın, vəzifəli adamın adını çəkə bilərsiniz? Uzun əsrlər keçib, şair Nizami isə hələ də sevilə-sevilə yad edilir, əsərləri məhəbbətlə oxunur.

İllər keçəcək. Bu gün tanıdığımız, hətta həsəd apardığımız imkanlı və vəzifəli adamların adları unudulacaq, göz oxşayan imarətləri yerlə-yeksan olacaq, gələcəkdə onların varlığından, həyatda yaşayıb-yaşamayacağından heç kim xəbər tutmayacaq, amma şairləri tarix öz səhifələrində əbədi saxlayacaq, onların şeirləri nəsillərdən-nəsillərə keçib yaşayacaqdır.

Rəşad Məcidin şeirləri də yaşayacaq, çünki o, bu günün yox, bütün zamanların şairidi. O, daha çox gələcək nəsillər üçün yazır.

Rəşad Məcid bir şair olaraq bu dünyaya dünyanın bilmədiklərini pıçıldayır. Onun hər şeirindən şair ömrünün ətri gəlir. Şairin ömrünə baxıb, onun yaşadığı ömrü şeirlərindən öyrənəndə səndə də onun kimi yaşamaq arzusu oyanır. İnsanın ürəyində bu gözəl arzunu oyadan şairin şeirləridi. Deməli, onun hər şeirində Tanrı sevgisi var, Tanrı gücü var. Bu Tanrı sevgisindən necə xoşbəxt olmayasan, bu Tanrı gücündən necə ilham almaya bilərsən? Bax, budur şairin böyüklüyü, bax, budur şeirin qüdrəti!

Rəşad Məcid şeirinin qüdrəti həm də onun təsir gücündədir. Onun şeirlərini oxuduqca istər-istəməz bulaq suyu kimi durulursan, təmizlənirsən, saflaşırsan, mənən zənginləşirsən, vətəni, torpağı, milləti daha çox sevirsən, yurdun hər daşına, quru yarpağına belə müqəddəs bir varlıq kimi baxırsan...

O böyük insanın şeirləri həm də haqqa çağırışdı, haqq yoluna dəvətdi və bu dəvəti qəbul eləməklə könlünün haqqa doğru uçuşunu hiss edirsən. Hiss edirsən ki, ruhən azad yaşayırsan və ruhən azad yaşaya-yaşaya həm də millətini, dövlətini, dövlətinin bayrağını yaşadırsan, insanları yaşadırsan, insanlığı yaşadırsan. Hiss edirsən ki, sevirsən və sevə-sevə sevilirsən. Sevməkdən, sevilməkdən gözəl nə ola bilər? Bilmirəm. Ancaq onu bilirəm ki, ruhən azad olmayan insanın sevgisi də azad ola bilməz. Şair azadlıq aşiqi kimi azadlığın nurunu bizə içirdir və biz də bu nurun işığında Rəşad Məcidin ədəbi dünyasına daxil oluruq. Bu dünyada nələr yoxdu? Onun mənəvi dünyasında halallıq var, ləyaqət var, ümid var, inam var, düzlük, saflıq, doğruluq var, bütövlük var, kişilik, mərdlik var, həm də insanlara qarşı böyük və tükənməz sevgi var.

Hərdən öz-özümə düşünürəm ki, əgər yer üzündə halallıq, ləyaqət, düzlük, saflıq, mərdlik, ülvi məhəbbət, təmiz sevgi... yoxa çıxarsa, onları Rəşad Məcidin özündə və sözündə axtarıb tapmaq mümkündü. Dünyanın dağılmamasının bir səbəbini də bunda axtarmaq lazımdır. Bəli, dünya işıqlı adamların çiyinlərində bərqərar olub. İşıqlı adamlar olmasaydı dünya zülmətə bürünərdi və həyat sönərdi.

Ərz elədiyim kimi Rəşad Məcid işıqlı adamdı. Onun işığına can atanların sayı gündən-günə çoxalmaqdadır. Mən də o işıqlı adamın işığına doğru yol gedirəm. Şairin şeirlərinin işığında özümü görmək istəyirəm, özümü dərk etmək istəyirəm. Özünü dərk edən adam, Allahı da dərk edər, - deyirlər. Həm də deyirlər ki, şairlər də Allah məqamına yüksələn insanlardı. Onlar ən ali məqamında durduqlarına görə Allahın səsini hamıdan yaxşı eşidirlər. Deməli, Allahdan sonra peyğəmbərlər, peyğəmbərlərdən sonra şairlər gəlir ki, bu sıralamada yanlışlıq yoxdur. Bunu mən demirəm. Bunu gözəl şairlərin gözəl şeirlərindən də duymaq mümkündür.

...Rəşad Məcidin şeirlərindən dəniz ətri gəlir, sevgi qoxusu gəlir, sünbül qoxusu gəlir, dağ çiçəklərinin ətri gəlir, bir sözlə onun şeirlərindən bir çələng bağlasaq, göz oxşayan, ruh oxşayan bu şeir çələngindən Vətən qoxusu, torpaq qoxusu gəldiyini bilərik və möhtəşəm və qüdrətli şair istedadının bir daha şahidi olarıq.

Sözü necə incələməyi dərindən bilən Rəşad Məcid Allaha doğru məhəbbətlə, böyük sevgiylə gedən şairdi. O, Allaha doğru getdikcə daha da kamilləşir, müdrikləşir, saflaşır və bu saf, ilahi duyğuları şeirlərinə hopdurur. Onun şeirlərini oxuyanlar da öz növbəsində saflaşır, müdrikləşir, nəfsizləşir...

Düşünürəm ki, yaxşı şeir oxumaq da tövbə eləməyə bərabərdi. Yaxşı şeirlər oxumaqla da insan günahlarını təmizləyə bilər. Kitab oxumaq könül ziyarəti deməkdi. Bir şair könlünü ziyarət eləmək, Məkkəni ziyarət eləməyə bərabərdi. Hər halda mən belə düşünürəm və öz düşüncəmdə yanılmadığımın fərqindəyəm. Bunu onunla əsaslandırıram ki, şairlər Ulu Tanrını eşitdikləri kimi, Ulu Tanrı da şairləri eşidir, onların xoş məramlarla yoğrulan diləklərini, arzu və istəklərini eşidir. Bu diləklər, arzu və istəklər insanların xoşbəxtliyi üçündür. Deməli, şairlərin şeirlərində həm də bir dua gücü var və bu şeirlərdə hər kəs özünü tapır və tapdığına çox sevinir, çünki bu şeirlərdə həm də sevgi dili var, məhəbbət dini var, eşq dünyası var. Eşq olmasa dünyanın nə dəyəri olardı? Axı şair də gözəl deyib: "Eşqsiz ey dünya, nədir dəyərin?". - Bəli, dünyanı dəyərli eləyən eşqdi, sevgidi. Şairlər də "sevgi dili"lə danışırlar. "Sevgi dili"lə danışan Rəşad Məcidin məhəbbət təranələrindən bir bəndə diqqət yetirək:



**Qəlbimin sevgisiz qalan çağından**
**Olsam da özümün özüm düşməni,**
**Boylanıb bir ömrün gün doğanından,**
**Bir sevgi qoruyur nə vaxtdı məni.**

Sevgi olmasa günəş şəfəq saçarmı, çiçəklər açarmı, sular axarmı, quşlar nəğmə oxuyarmı? Bəli, sevgi olmasa, həyat da olmaz, deməli, yaşamaq da olmaz. İnsanı yaşadan sevgidi. Şair də haqlı olaraq deyir ki, məni nə vaxtdı bir sevgi qoruyur. Bu sevginin işığında əbədiyyətə söz-söz, misra-misra yol gedən Rəşad Məcid şeirlərilə bu haqq yolunu daha da nurlandırır və biz bu nurun işığında onun şairlik mərtəbəsinə yüksəldiyini görürük. Bu, bizi sevindirir, çünki onun kimi qələm adamlarını, işıqlı ziyalıları ucalıq mərtəbəsində görmək, millətin imzasının imzalar içində var olduğuna bir daha əminlik deməkdi.

Rəşad Məcid sıradan bir şair deyil. Onun poeziyası həm ədəbiyyatın, həm də əbədiyyətin tarixinə yazılacaq. Bu, həqiqətdir. O da həqiqətdir ki, xalqa, zamana xidmət eləyən şeirlərilə, böyük ədəbiyyata vermiş olduğu böyük töhfələrlə bir yazıçı, şair və jurnalist olaraq qüdrətli istedadını ortaya qoymuş, bir-birindəni maraqlı, sanballı kitabları ilə özünü dəfələrlə təsdiq etmişdir. Bəli, Rəşad Məcidin kitabları özünü təsdiqidi. "Hələ ki, vaxt var", "10 sentyabr", "Əlvida və salam", "Dəlicəsinə", "Bir də gəlməyəcək..." və başqa kitablarıyla görüşümüzə gələn, bu görüşlərilə ürəyimizə sevinc gətirən şair-yazıçı öz əsərlərilə ruhunu ədəbiyyata kökləmiş bir söz adamı olaraq Tanrının verdiyi ömrü Tanrının istədiyi kimi yaşayır. Və hərdən mənə elə gəlir ki, poeziyasevərlər onun şeirlərində dincəlir, çünki hər kəs özünü Rəşad Məcidin şeirlərində görür, hər kəs hiss və həyacanlarını, yaşantılarını onun şeirlərində tapır və tapdığına çox sevinir.

Şairin kitabları milli yanğı ilə yazılıb, gələcəyə söykənmiş düşüncə ilə qələmə alınıb. Bu kitabları bir-bir vərəqləyib oxudum. Oxudum və şairin yaradıcılığı ilə az-çox tanış olanda bir daha anladım ki, Rəşad Məcid kimdir...

...Rəşad Məcid tam orijinal bir şairdir. Müstəqillik dövrü Azərbaycan şeirinin yaradıcıları sırasında onun özünəməxsus görkəmli yeri vardır (akademik İsa Həbibbəyli).

... Rəşad Məcid şairdir. Ədəbiyyata da şeirlə gəlib. Rəşad Məcid nasirdir. "10 sentyabr" adlı maraqlı bir hekayəsi var. Rəşad Məcid publisistdir. Yaxşı yazıları var. Bu yazılarda maksimum həqiqətə can atır. Və Rəşad Məcid gözəl atadır (Vaqif Yusifli).

...Rəşad Məcid həm də incə qəlbli və gözəl şairdir... Bu isə şübhəsiz, həm bədii, həm də estetik fikrimizin uğuru deməkdi (Nizaməddin Şəmsizadə).

...Rəşad Məcidin bir vacib keyfiyyəti də onun gənclərə öz güclərinə inam hissi aşılaması, onlara irəli getmək üçün cəsarət, ürək-dirək verməsi, amma həm də güclü qayğı göstərməsidir (Elçin İsgəndərzadə).

Bu qayğını, bu diqqəti mən də öz üzərimdə hiss elədim. Rəşad Məcidin mehribanlığı, səmimiyyəti, mənəvi dəstəyi... ürəyimdə sönməkdə olan "ocağı" alovlandırdı, məni yaşamağa və yazmağa ruhlandırdı, ürəyimin ağrısını yüngülləşdirdi və onu da hiss elədim ki, cəmiyyətdə ən nüfuzlu şəxslərdən biri olmasına baxmayaraq Rəşad Məcid sadədən sadə, insanlarla tez ünsiyyət yarada bilən, hamı ilə dostluq etməyə hazır olan işıqlı bir adamdı. Və mən həmin o işıqlı adamı, o gözəl şairin Vətən qoxulu, torpaq qoxulu, sevgi qoxulu, kədər və həsrət qoxulu şeirləri haqqında düşüncələrimi yazmaq, hekayələri və publisistik məqalələri barədə söz açmaq üçün özümdə bir cəsarət tapıb qələmi əlimə götürdüm. Bu yazdıqlarım "Rəşad Məcidin söz dünyası" kitabından bir damladır. Dənizin tamını bilmək üçün bir damla da kifayət deyilmi?

Şeirlərilə könül sözü söyləyən şairin, söz dünyasından söz açmamışdan öncə onu da demək istəyirəm ki, Rəşad Məcid sadə olduğu qədər böyük, böyük olduğu qədər sadə bir insandı, səmimi bir insandı, duyğuları dəniz kimi çağlayan, xalqa, millətə şərəflə xidmət eləyən ədəbiyyat adamıdı, özü sözünü, sözü özünü mükəmməl şəkildə tamamlayan, düşünən, düşündürən bir vətən övladıdı.

**Rəşad Məcid Turan dünyasının şairidi və bu gözəl şairin şeirləri haqqında söz demək şərəf işidi.**